**İPOTEKA PREDMETİ OLAN ƏMLAKIN SIĞORTASI ÜZRƏ YADDAŞ VƏRƏQƏSİ**

**Sığorta hadisəsi hesab edilə bilən hal baş verərsə, Sığortalı aşağıdakı hərəkətləri etməlidir:**

1. Hadisə baş verdikdə **(+99450) 275 86 89** telefon nömrəsi vasitəsilə sığorta şirkətinə dərhal məlumat verin.
2. Baş vermiş hadisə barədə dərhal müvafiq səlahiyyətli orqanları məlumatlandırmaq, o cümlədən aşağıda göstərilən hadisələr barədə qeyd olunmuş orqanlara xəbər verməlidir:

   Sığortalıya qarşı yönəldilmiş üçüncü şəxslərin qərəzli, qanuna zidd olan hərəkətləri, sındırmaqla oğurluq, soyğunçuluq, quldurluq – polis orqanlarına (102) yanğın – yanğın nəzarəti orqanlarına (101) partlayış və ya su basma – müvafiq qəza və kommunal xidmətlərinə.
3. Sığorta hadisəsi baş verdikdə Sığortalı (Faydalanan şəxs) dərhal, lakin hər halda 3 gündən gec olmayaraq hadisənin baş verməsi haqqında Sığortaçıya (və ya onun nümayəndəsinə) məlumat vermək, və Sığortaçı (onun nümayəndəsi) tərəfindən verilən bütün göstərişlərə əməl etmək.
4. Zərərin qarşısının alınması və ya təsirinin azaldılması və zərər vurulmuş əmlakın xilas edilməsi üçün bütün mümkün tədbirləri görməli və belə tədbirlərin görülməsi zamanı Sığortaçıdan aldığı bütün təlimatlara əməl etməlidir;
5. Sığortaçının və ya onun nümayəndələrinin zərər dəymiş əmlaka baxışın keçirilməsində və ya tədqiq edilməsində, vurulmuş zərərin səbəb və həcminin müəyyən edilməsində, zərərin təsirinin azaldılması tədbirlərində iştirakını təmin etməli;
6. Sığortaçının tələbi ilə sığortalanmış əmlaka vurulmuş zərərin həcmi və səbəblərini müəyyənləşdirmək üçün zəruri bütün məlumat və sənədləri Sığortaçıya təqdim etməli;

**Sığorta Şirkəti aşağıdakı hallarda sığorta ödənişinin verilməsindən imtina edir:**

Sığortaçı sığorta ödənişinin verilməsindən aşağıdakı hallarda imtina edir:

1. Əgər Sığortalı (Faydalanan şəxs) sığorta hadisəsinin baş verməsi haqqında sığorta müqaviləsində göstərilmiş müddət ərzində və müəyyən edilmiş qaydada Sığortaçıya bu barədə məlumat verməyibsə. Bir şərtlə ki,vaxtında məlumat verməmə sığortaçını hadisəni araşdırmaq və zərəri qiymətləndirmək imkanından tam və qismən məhrum etmiş olsun.
2. Sığortalı (Faydalanan şəxs) sığorta obyekti, riskin dəyişməsi və ya sığorta hadisəsi nəticəsində dəymiş zərərin miqdarı haqqında bilərəkdən təhrif olunmuş və ya yanlış məlumatı Sığortaçıya təqdim edibsə;
3. Sığortalı (Faydalanan şəxs) dəyə biləcək zərərlərin azalması və ya qarşısının alınması üçün mümkün və ağlabatan tədbirləri qəsdən görmədikdə;
4. Sığortalı (Faydalanan şəxs) hadisə barədə müvafiq səlahiyyətli orqanlara məlumat vermədikdə, lakin sığorta hadisəsi nəticəsində dəymiş zərərin səbəbinin və xarakterinin müəyyən edilməsi bunu tələb etdikdə;
5. Müvafiq səlahiyyətli orqanlar sığorta hadisəsi faktının baş verməsini təsdiq etmədikdə;
6. Sığortalı (Faydalanan şəxs) hazırkı Qaydaların 21.2.7-ci bəndində göstərilən sənədləri təqdim etmədikdə;
7. Sığortalı (Faydalanan şəxs) dəymiş zərərin əvəzini zərərin yaranmasında təqsirli olan şəxsdən aldıqda;
8. Sığortalı (Faydalanan şəxs) hazırkı Qaydaların və sığorta müqaviləsinin şərtlərinə və/və ya tələblərinə riayət etmədikdə, sığorta müqaviləsindən irəli gələn öhdəliklərini yerinə yetirmədikdə;
9. Azərbaycan Respublikasının qanunvericiliyi və ya sığorta müqaviləsinin şərtləri ilə nəzərdə tutulmuş digər hallarda.

**ƏLAQƏ VASİTƏLƏRİ:**

| | |
|---|---|
| **Yanğınsöndürmə Xidməti** | **101** |
| **AR Daxili İşlər Nazirliyi / DYP** | **102** |
| **AR Səhiyyə Nazirliyi Təcili Yardım** | **103** |
| **AR Fövqəladə Hallar Nazirliyi** | **112** |

**QEYD:** **Bu YADDAŞ VƏRƏQİ məlumat xarakteri daşıyır, sığorta qanunvericiliyinin və müvafiq sığorta qaydalarının xülasəsidir və hüquqi qüvvəyə malik deyildir.**